

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 mart 2026-cı il №17 (3019) https://mod.gov.az Qiyməti 30 qəpik


***Ölkəmizin dünya miqyasında layiqli və etibarlı tərəfdaş olaraq tanınması ilə paralel, Qalib Azərbaycan Ordusu günü-gündən öz qüdrətini artıraraq təkcə regionda deyil, qlobal arenalarda da öz adından bəhs etdirməyi bacarır. Təməli ölkəmizin iqtisadi gücünə söykənən ordu quruculuğu sahəsində atılan zəruri addımlar nəticəsində dövrün tələblərinə uyğun silah və texnikalar arsenalımıza daxil edilməklə yanaşı, sərəncamda olan döyüş vasitələrinin modernləşdirilməsi istiqamətində mühüm işlərə imza atılır.***

Dünyanın aparıcı ordularına malik ölkələr ilə qurulan səmərəli hərbi əməkdaşlıqlar da hərbi siyasətimizin mühüm bir hissəsidir.

## Qalib ordunun, məğlubedilməz xalqın və Müzəffər Ali Baş Komandanın əsgərləriyik



Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq göstərişlərinə əsasən, ordumuzun müasir standartlara inteqrasiyası istiqamətində böyük işlər görülür. Son illərdə keçirdiyimiz uğurlu əməliyyatlardan sonra ordumuzun şəxsi heyətinin öz təcrübi və nəzəri biliklərini daha da təkmilləşdirməsinə yönəlik aparılan fəaliyyətlər planı modern tələblər nəzərə alınmaqla təşkil olunur. Seçilmiş prioritet istiqamətlərin nəticəsində hərbi qüdrətimiz artır, qüdrətimiz artdıqca da sabahımıza, firavanlığımıza olan inamımız da artır. "Güclü ordu güclü ölkə" məfhumu son illərdə bir daha öz təsdiqini tapıb. Görülən işlər, təşkil olunan təlimlər, hazırlanan planlar qüdrətli ordumuzun güclənməsinə misilsiz təkan verir və bu uğur hər bir azərbaycanlını sevindirir və qürurlandırır. Ölkəmiz gücləndikcə də regionda əsas söz sahibi, beynəlxalq aləmdə isə sülh dəstəkçisi olaraq tanınır.

**(Ardı 2-ci səhifədə)**

## Ötən ay 481 mina və 1621 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən fevral ayında icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 410, tank əleyhinə 71 mina və 1621 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 4264,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.






### Türkiyə və Azərbaycan hərbi-sənaye kompleksi sahəsində əməkdaşlığı dərinləşdirir

Türkiyənin milli müdafiə naziri Yaşar Güler martın 2-də Ankarada Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə iki qardaş ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

## Cəmşid Naxçıvanski adına Hərbi Liseydə gələcəyin zabit kadrları yetişir



"Gərək hər bir gənc orduya səfərbər olmağa hazır olsun və orduda xidmət etməyi özünə şərəf kimi qəbul etsin", - deyə Ulu Öndər Heydər Əliyev qeyd etmişdir. Bu fikir Azərbaycan dövlət quruculuğu siyasətində ordunun rolunun nə qədər mühüm olduğunu aydın şəkildə ifadə edir. Ümummilli Liderin rəhbərliyi ilə ölkədə milli hərbi kadrların hazırlanması, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması və müasir hərbi təhsil sisteminin formalaşdırılması istiqamətində mühüm və ardıcıl addımlar atılmışdır. Hərbi təhsilin inkişaf etdirilməsi yalnız ordunun peşəkarlığının artırılması deyil, həm də dövlət müstəqilliyinin uzunmüddətli təminatı kimi qiymətləndirilmişdir. Bu strateji yanaşmanın nəticəsi olaraq Azərbaycanda gənc nəslin erkən yaşlardan hərbi ruhda yetişdirilməsi məqsədilə xüsusi hərbi təhsil müəssisələri yaradılıb, onların fəaliyyəti dövlət səviyyəsində daim diqqət mərkəzində saxlanılıbdır.

Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və ordumuzun maddi-texniki bazası, döyüş qabiliyyəti və şəxsi heyətinin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir: "Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır… Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmlənmişdir. Döyüş qabiliyyəti yüksək səviyyədədir. Ruh yüksəkliyi var. Ordumuzun, əsgərlərimizin, zabitlərimizin mənəvi-psixoloji durumu çox yüksəkdir. Nəinki orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi yüksəkdir. Bütün cəmiyyət vahid amal uğrunda birləşib". Bu siyasət müasir dövrdə də uğurla davam etdirilir və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıbdır.

**(Ardı 3-cü səhifədə)**

## İdman döyüş qabiliyyətinin əsas amilidir

Azərbaycan Ordusu bu gün regionun ən qüdrətli və müasir hərbi qüvvələrindən biri kimi ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün əsas təminatçısıdır. Son illər həyata keçirilən genişmiqyaslı islahatlar, ordumuzun maddi-texniki bazasının yenilənməsi və hərbi qulluqçuların peşəkarlığının artırılması ordumuzu tamamilə yeni, keyfiyyətli inkişaf mərhələsinə yüksəldib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan tarixi zəfərlər göstərdi ki, ordumuzun gücü təkcə ən müasir pilotsuz uçuş aparatları, zirehli texnikalar və raket sistemləri ilə ölçülmür. Bu gücün sarsılmaz təməlində vətənpərvərlik hissi ilə döyünən qəlblər, polad iradəyə malik və hər an döyüşə hazır əsgər və zabit heyəti dayanır. Müasir müharibələrin xarakteri dəyişsə də, yüksək texnologiyaların tətbiqi genişlənsə də, çətin relyef şəraitində, keçilməz dağlıq ərazilərdə və meşəliklərdə qarşıya qoyulan tapşırığı sona qədər icra edə biləcək fərdin fiziki dözümlülüyü öz aktuallığını heç vaxt itirmir. Elə bu səbəbdən də, Azərbaycan Ordusunun gündəlik fəaliyyət qrafikində fiziki hazırlıq məşğələləri ən mühüm istiqamətlərdən biri kimi xüsusi diqqət mərkəzində saxlanılır.



**(Ardı 6-cı səhifədə)**

# Qalib ordunun, məğlubedilməz xalqın və Müzəffər Ali Baş Komandanın əsgərləriyik





(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Ordusunda döyüş hazırlığı planlarında aparıcı yer tutan məşğələlərdən biri də taktiki hazırlıqdır. Taktiki hazırlıq təkcə güc göstəricisinə deyil, qərarvermə qabiliyyətinə, qarşılıqlı uzlaşmaya təkan verən və ən əsası bölmənin kollektiv, qrup və fərdi şəkildə öz praktiki bacarıq və nəzəri biliklərinin artmasına səbəb olan məşğələlərdən biridir. Taktiki hazırlıq məşğələlərində planı düzgün qurmaqla yanaşı, dəyişmiş əməliyyat şəraitinə uyğunlaşma da yoxlanılır. Dünyanın aparıcı ordularının hərbi konsepsiyalarında çeviklik, operativlik və qərarvermə qabiliyyəti əsas bacarıqlardan biri olaraq taktiki hazırlıq məşq və təlimlərində dərindən tədris edilir. Adıçəkilən hazırlıq prosesi Azərbaycan Ordusunda da əsas döyüş hazırlığı fəaliyyətlərindən biri hesab edildiyindən şəxsi heyətin döyüşaparma və özünümüdafiə keyfiyyətlərinin artırılması məqsədi ilə təşkil edilir.

"N" hərbi hissəsində bölmələrdən birinin günün nizam qaydalarına uyğun olaraq təşkil olunan çöl məşğələsində idik. Bölmənin hərbi qulluqçuları komandirlərin rəhbərliyi altında qarşıya qoyulan tapşırıqları operativ şəkildə icra edirdilər. Şəxsi heyətin tapşırıqları qətiyyətlə, müvəffəqiyyətlə və dəqiqliklə icra etməsi bölmədəki döyüş hazırlığının yüksəkliyindən xəbər verirdi. Əvvəlcə məşğələ rəhbəri baş leytenant Bala Ağa Həsənovla həmsöhbət olduq. 2018-2022-ci illərdə indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil almış gənc zabit artıq üç ildən çoxdur ki, ordu sıralarında xidmət edir. "Şəxsi heyətin döyüş hazırlığı planına əsasən keçirilən məşğələlər nəzəri və praktiki fəaliyyətlər olmaqla, sinif və çöl şəraitində təşkil olunur. Taktiki hazırlıq döyüş hazırlığının mühüm tərkib hissəsi olaraq, nəzəri cəhətdə öyrənilənin praktiki tətbiqindəki nəticəsini özündə birləşdirir. Real döyüş mühitinə uyğunlaşdırılmış çöl məşğələsində plana görə bölmənin şəxsi heyəti ərazinin mühafizəsi, axtarış fəaliyyəti, müşahidə, pusqu qurma və hücum tapşırıqlarını məşq edir. Keçirilən dərs və məşğələlərdə müasir dövrün döyüşaparma və özünümüdafiə üsulları da tətbiq edilir. Mütəmadi keçirilən təlim və məşqlər şəxsi heyətin Vətən müdafiəçisi və döyüşçüsü kimi formalaşdırır. Bizim də üzərimizə düşən əsas vəzifə ordu sıralarını təcrübəli və bacarıqlı əsgərlərlə daha da möhkəmləndirməkdir".







Əsgər Rüfət Elyazov taktiki hazırlıq məşğələsində öz təcrübəsi ilə fərqlənən hərbi qulluqçu olaraq diqqətimi cəlb etdi. "Hərbi xidmətə gələndən təcrübəli komandirlərimizin rəhbərliyi altında öz hərbçi keyfiyyətlərimizin artırılması üçün çalışırıq. Məhz onların sayəsində hərb sənətinin incəliklərini öyrənərək, hərbi qulluqçu və Vətən müdafiəçisi kimi yetişirik. Hərbi bilik və döyüş vərdişlərini döyüş hazırlığı məşğələlərində daha da möhkəmləndiririk", - əsgər R.Elyazov bildirdi.

"Tapşırıqların dəqiqliklə və qüsursuz yerinə yetirilməsi hər birimizin əhvalına müsbət təsir edir", - deyən əsgər İmanqulu İsayev söhbətə davam etdi. "Bu gün biz Vətən müdafiəçisi əsgərləriyik. Üzərimizə düşən əsas vəzifələr, yüksək hərbi intizama malik, verilən tapşırığı dəqiq və vaxtında yerinə yetirə bilən əsgər olmaqdır. Xidmətimin ilkin dövründə silahla tanışlığım həyatımda ən yaddaqalan anlardan biridir. İlk vaxtlarda həyəcanlı olsam da, sonradan silahın incəliklərini öyrəndim. Onun taktiki-texniki xüsusiyyətlərini, düzgün istifadə və qulluq qaydalarını dərindən mənimsədikdən sonra onu xidmətimin bir parçası bildim. Bu gün silahımı da, silahdaşlarımı da özümə dost bilir, kollektivimi isə özümə ailə hesab edirəm. Bu günün Vətən müdafiəçisi olaraq fəxr edirəm ki, qalib ordunun mundirini qürurla üzərimdə daşıyıram".

Əsgər Akşin Əlizadə bildirdi ki, komandirlərin qeyd etdiyi kimi, silahdan düzgün istifadə etmək, cəld və çevik olmaq üçün keçirilən məşqlərdə nəzəri və praktiki cəhətdən əlimizdən gələnin ən yaxşısını etməliyik. "Bunun üçün keçirilən dərs və məşğələlərdə tədris olunanları lazımdır. Sıralarımıza yeni daxil olan əsgər yoldaşlarımıza köməkliyimizi göstərir, onların da peşəkar əsgər kimi yetişməsində komandirlərimizə kömək edirik. Hədəfləri məhv etmək, müşahidə aparmaq və digər fəaliyyətlər üzrə tapşırıqlar müxtəlif vəziyyətlərdə icra edilir. Ayaqüstü, dizüstü, ön və arxa üstə uzanaraq icra olunan tapşırıqlar var ki, bu da fiziki hazırlığın yüksək olmasını bizdən tələb edir. Komandirlərimizin yüksək olması üçün də günün nizam qaydalarına uyğun olaraq idman məşğələləri keçirir. Bu da bizim əsgər olaraq formalaşmamızda böyük rol oynayan aspektlərdəndir".



Növbəti müsahibim Cəlilabadın Şiləvəngə kəndindən olan əsgər Sahibzaman Kərimov oldu. "Bu gün qalib və müasirləşən Azərbaycan Ordusunun sıralarında xidmət edən əsgər olaraq fəxarət duyuram. Bunun özü də böyük məsuliyyətdir. Bizə etimadı yüksək olan xalqımızın inam və etibarını layiqincə doğrultmalıyıq. Ona görə də daim öz üzərimizdə çalışmalı, öyrədilənləri dərindən mənimsəməli, hərbi intizamımızı qorumalıyıq. Qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirməli, Vətəni layiqincə müdafiə etməliyik. Bundan ümdə vəzifə yoxdur. Vətəni qorumaq ailəni qorumaqdır. Əsgər yoldaşlarımla birlikdə Vətən müdafiəçisi olaraq ona uzadılacaq qolları kökündən kəsməyə həm qadirik, həm də qabilik. Çünki biz qalib ordunun, məğlubedilməz xalqın və Müzəffər Ali Baş Komandanın əsgərləriyik", - əsgər dedi.

Bölmənin taktiki hazırlıq məşğələsində gördüklərimiz, qeyd etdiklərimiz Azərbaycan əsgərinin gündən-günə daha da gücləndiyinin göstəricisidir. Əsgərin məğlubedilməz olmasını şərtləndirən amillərdən biri onun yüksək praktiki təcrübəyə və nəzəri biliklərə malik olmasıdır. Çünki hər bir işdə uğurun başlıca açarı məhz təcrübədir. Hərbi qulluqçuların taktiki, fiziki və ümumilikdə hərbi vərdişlərinin təkmilləşdirilməsi bölmənin döyüş qabiliyyətinin və özünümüdafiə bacarığının artırılmasına xidmət edir. Əbəs yerə deyilmir ki, təlim və məşqlərdə təkmilləşən hərbi qulluqçu döyüş meydanında məğlubedilməzdir. Azərbaycan əsgəri öz məğlubedilməzliyini təlim meydanı ilə yanaşı, haqq savaşı meydanında da sübut etdi.

**Kapitan
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

*Hərbi təhsil*

# Cəmşid Naxçıvanski adına Hərbi Liseydə gələcəyin zabit kadrları yetişir







**(Əvvəli 1-ci səhifədə)**

Milli ordunun əsasını təşkil edən zabit kadrlarının hazırlanması prosesi gənc yaşlardan başlayır. Yeniyetmələrin hərbi biliklərə yiyələnməsi, onlarda hərbi intizam, məsuliyyət, Vətənə sədaqət və liderlik keyfiyyətlərinin formalaşdırılması məqsədilə fəaliyyət göstərən hərbi liseylər bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu təhsil müəssisələri yalnız ümumi orta təhsil verən məktəblər deyil, həm də gələcək zabitlərin mənəvi-psixoloji, fiziki və peşəkar cəhətdən formalaşdığı mühüm hazırlıq mərhələsidir. Azərbaycan Ordusunun zabit heyətinin böyük hissəsinin məhz bu məktəblərin məzunlarından formalaşması onların dövlət və ordu üçün nə qədər strateji əhəmiyyət daşıdığını göstərir.



Belə mühüm hərbi təhsil ocaqlarından biri də diviziya komandiri, Azərbaycanın görkəmli hərbi xadiminin adını daşıyan Cəmşid Naxçıvanski adına Hərbi Liseydir. MMU-nun tərkibində fəaliyyət göstərən bu lisey Azərbaycanın gənclərinin hərbi ruhda tərbiyə olunması, onların gələcək zabit kimi hazırlanması və milli hərbi kadr potensialının formalaşdırılması istiqamətində onilliklər ərzində mühüm rol oynayıb. Liseyin yaradılması və inkişafı bilavasitə Azərbaycan dövlətinin hərbi quruculuq strategiyasının tərkib hissəsi olmuş, onun fəaliyyəti nəticəsində minlərlə gənc Azərbaycan Ordusunun sıralarında şərəflə xidmət edən zabit kimi yetişib.



Azərbaycan xalqının dövlətçilik tarixində güclü ordu quruculuğu hər zaman mühüm yer tutub. Xüsusilə müasir dövrdə suverenliyin təmin olunması, ərazi bütövlüyünün qorunması və dövlət müstəqilliyinin möhkəmləndirilməsi peşəkar və yüksək hazırlıqlı hərbi kadrların mövcudluğunu zəruri edib. Bu baxımdan hərbi təhsil sistemi Azərbaycan Ordusunun əsas dayaqlarından biri hesab olunur. Bu lisey Dahi Rəhbər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakı şəhərində yerləşən 2 saylı 8 illik internat məktəbinin bazasında yaradılmışdır.

24 noyabr 1997-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, təhsil müəssisəsinin adı dəyişdirilərək rəsmi şəkildə Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılıb. Bu qərar liseyin fəaliyyətinin daha da təkmilləşdirilməsi, onun statusunun möhkəmləndirilməsi və milli hərbi təhsil sistemində rolunun artırılması baxımından mühüm addım olub.

Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli Sərəncamına və müdafiə nazirinin 9 aprel 1998-ci il tarixli əmrinə əsasən, Naxçıvan Muxtar Respublikasında liseyin filialı yaradılıb. Bu filialın yaradılması region gənclərinin hərbi təhsilə cəlb olunması və milli zabit kadrlarının hazırlanmasının coğrafiyasının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Daha sonra Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2004-cü il tarixli Sərəncamına əsasən, həmin filialın bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb.

Cəmşid Naxçıvanski adına Hərbi Lisey hərbiləşdirilmiş tam orta təhsil müəssisəsi kimi fəaliyyət göstərir. Liseyə qəbul 15 yaşı tamam olmuş və 17 yaşına çatmamış, 9-cu sinfi bitirmiş gənclər arasından həyata keçirilir. Namizədlər riyaziyyat, fizika, Azərbaycan dili və kimya fənləri üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunan test imtahanlarında iştirak edərək seçim mərhələsindən keçirlər. Bu proses hərbi təhsil almaq üçün ən layiqli namizədlərin müəyyən edilməsinə imkan verir.



Hərbi liseydə təhsil müddəti iki il təşkil edir. Bu müddət ərzində kursantlara Azərbaycan Respublikasının təsdiq olunmuş tədris planına uyğun olaraq ümumilikdə 13 fənn tədris olunur. Bununla yanaşı, kursantlar sıra hazırlığı, taktiki hazırlıq, atəş hazırlığı, fiziki hazırlıq və digər hərbi fənlər üzrə bilik və bacarıqlara yiyələnirlər. Bu dərslər kursantların gələcəkdə ali hərbi təhsil müəssisələrində uğurla təhsil almalarına və peşəkar zabit kimi formalaşmalarına möhkəm zəmin yaradır.

Burada formalaşdırılmış hərbi mühit kursantların intizamlı, məsuliyyətli və Vətənə sadiq şəxsiyyət kimi yetişməsinə xidmət edir. Kursantlar gündəlik həyatlarını hərbi rejimə uyğun şəkildə qurur, komandir heyətinin rəhbərliyi altında təhsil alır və fiziki hazırlıq keçirlər. Bu proses onların liderlik keyfiyyətlərinin formalaşmasına, psixoloji davamlılığının artmasına və hərbi xidmətə hazır vəziyyətə gəlməsinə şərait yaradır.



Liseydə vətənpərvərlik tərbiyəsi əsas istiqamətlərdən biridir. Kursantlara Azərbaycanın hərb tarixi, qəhrəmanlıq ənənələri və dövlətçilik dəyərləri barədə geniş məlumat verilir. Şəhidlərin xatirəsinə həsr olunmuş tədbirlər və vətənpərvərlik mövzusunda keçirilən görüşlər gənclərin Vətənə bağlılığını daha da gücləndirir.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu siyasəti nəticəsində liseyin də maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Müasir tədris korpusları, yataqxanalar, idman kompleksləri və təlim sahələri kursantların istifadəsinə verilmişdir. Müasir texnologiyaların tətbiqi tədris prosesinin keyfiyyətini daha da artırmışdır.

Azərbaycan tarixinin ən şərəfli səhifələrindən olan İkinci Qarabağ müharibəsində liseyin şəxsi heyəti qəhrəmanlıq nümayiş etdirib. 27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan torpaqları azad etdi. Döyüşlərdə liseyin zabit və gizirləri tapşırıqları peşəkarlıqla yerinə yetirdilər. Döyüş zamanı 1 nəfər Vətən uğrunda qəhrəmancasına şəhid olub, 3 nəfər isə yaralanıb.

Bu gün Cəmşid Naxçıvanski adına Hərbi Lisey Azərbaycan Ordusunun zabit kadrlarının hazırlanmasında təməl təhsil müəssisələrindən biri kimi fəaliyyət göstərir. Onun yetirmələri Azərbaycan Ordusunun müxtəlif hərbi hissələrində və Silahlı Qüvvələrin digər strukturlarında xidmət edərək dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsinə mühüm töhfələr verirlər.

Liseyin zəngin tarixi, yetişdirdiyi qəhrəman zabitlər və qazandığı nailiyyətlər onun Azərbaycan hərbi təhsil sistemində mühüm yer tutduğunu bir daha təsdiq edir.

**Baş leytenant
Əli ABIYEV
"Azərbaycan Ordusu"**

# 44 günün Zəfər dastanı



Tarix hər zaman müxtəlif hadisələrlə yaddaşımıza əbədi həkk olunur. Elə günlər var ki, zamanın arxasında sadəcə bir tarix kimi görünür, elə günlər də var ki, bütöv bir xalqın taleyini dəyişir və əsrlərlə danışılan dastana çevrilir. 2020-ci ilin 27 sentyabr tarixi də Azərbaycan xalqının yaddaşına məhz belə həkk olundu. Bu, həm dövlətin uzun illər apardığı qətiyyətli siyasətin, həm xalqımızın milli həmrəyliyinin, həm də vətənpərvər oğullarımızın yazdıqları bir qəhrəmanlıq dastanı idi.

Uzun illər ərzində işğal altında qalmış torpaqlarımızın yurd həsrəti hər bir azərbaycanlının qəlbində bir nisgilə çevrilmişdi. Doğma yuvalarından didərgin düşmüş məcburi köçkün ailələrinin acınacaqlı vəziyyəti xalqın yaddaşında sağalmaz yara kimi qalmışdı. Lakin bu vəziyyətlə barışmayan Azərbaycan dövləti torpaqlarımızın azad olunması yolunda məqsədyönlü və ardıcıl siyasət apardı. İqtisadi və hərbi gücünü artıran ölkəmiz haqq-ədalətin bərpa olunması uğrunda mübarizəsini gücləndirdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində ordu quruculuğu yeni mərhələyə qədəm qoydu. Belə ki, sərkərdə qətiyyəti, peşəkar zabit kadrlarının hazırlanması, yüksək döyüş hazırlığı, müasir silah sistemləri və vətənpərvərlik ruhu ilə formalaşmış şəxsi heyət bütün bunlar tarixi Zəfərin əsasını təşkil edirdi. Azərbaycan Ordusu artıq regionun ən güclü ordularından birinə çevrildi.

2020-ci il sentyabrın 27-də başlayan və tarixə 44 günlük Vətən müharibəsi kimi yazılan mübarizə xalqın iradəsinin açıq təzahürü oldu. Müharibənin ilk günündən cəbhədən gələn xəbərlərdən aydın oldu ki, Azərbaycan Ordusu torpaqlarımızın azadlığı uğrunda gedən bu savaşdan alnıaçıq, üzüağ çıxaraq qalibiyyətə nail olacaq. Belə də oldu... Döyüş meydanında düşmənin canlı qüvvəsini və zirehli texnikalarını məhv edən rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edərək qələbə qazandı və uzun illərin el-oba həsrətinə son qoyuldu.

Vətən müharibəsi zamanı Azərbaycan Ordusu misilsiz hərbi strateji bacarıq nümayiş etdirdi. Müasir texnologiyaların tətbiqi, koordinasiyalı əməliyyat planları düşmənin bütün planlarını darmadağın etdi. Bu qələbənin qazanılmasına səbəb təkcə müasir texnika deyildi, bu, Müzəffər Ali Baş Komandanın illərlə apardığı qətiyyətli siyasətin və onun rəhbərliyi ilə Azərbaycan Ordusunun döyüş meydanında göstərdiyi misilsiz şücaətləri oldu. İgid oğullarımızın qəlbindəki Vətən sevgisi, Hərbi Andа sədaqət onların şəhidlik zirvəsinə ucalmasına hazır olması demək idi. Torpaqlarımız bütövlüyü uğrunda döyüşən hər bir Vətən oğlu ölümün gözünə dik baxdı, "Təki Vətən yaşasın" deyərək canını bu yolda fəda etdi.

Vətən müharibəsi bir daha sübut etdi ki, xalqımız öz haqqını bərpa etmək iqtidarındadır. 2020-ci il 8 noyabr tarixində Şuşanın azad edilməsi ilə müharibənin taleyi həll olundu. Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşa şəhəri yenidən öz sahibinə qayıtdı. Bu, dövlət siyasətinin, hərbi gücün və xalqımızın milli birliyinin təntənəsi idi. 44 günün Zəfər dastanı şəhidlərin canı, müharibədə sağlamlıqlarını itirən oğullarımızın qanı ilə tarixə yazıldı. Şəhidlik zirvəsinə ucalaraq bu torpaqların Azərbaycan xalqına məxsus olduğunu bir daha sübut etdilər.

Torpaqlarımız azad edildikdən sonra Azərbaycanın Üçrəngli Bayrağı öz əzəməti ilə azad olunmuş bütün yurd yerlərimizdə dalğalandı.

Vətən müharibəsində qazanılan tarixi Zəfər göstərdi ki, müasir silahlarla təchiz olunan Azərbaycan Ordusunun həm də şəxsi heyyəti yüksək mənəvi dəyərlərə sahib olan bir ordudur. Bu baxımdan hərbi qulluqçularımız döyüş meydanında humanizm prinsiplərini də qoruyub saxladı, beynəlxalq hüququn tələbinə uyğun hərəkət etdilər.

44 günün Zəfər dastanı bir dövlətin, bir xalqın, bir ordunun vəhdətini göstərdi. Ön cəbhədə döyüşən ordumuzla arxa cəbhədə çalışan vətəndaşlarımız eyni məqsəd uğrunda birləşib mübarizə apardılar.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə bu gün azad edilmiş torpaqlarımızda bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Şəhər və kəndlərdə yeni infrastruktur layihələr həyata keçirilir. Müasir standartlara uyğun yaşayış evləri, məktəblər, uşaq bağçaları, səhiyyə müəssisələri və ictimai-iaşə obyektləri tikilərək sakinlərin ixtiyarına verilir. Qarabağ iqtisadi zonası yenidən dirçəlir, həyat öz axarına düşür. Artıq keçmiş məcburi köçkünlər mərhələli şəkildə öz doğma yurd yuvalarına köçürülürlər. Doğma torpaqlarının müqəddəsliyini, şirinliyini yenidən duyan sakinlər onlara yaradılan bu şəraitə görə ölkə başçısına minnətdarlıqlarını bildirirlər.

44 gün təqvim hesabında qısa görünə bilər, lakin bu uzun illərin yükünü daşıyan, bir xalqın taleyini dəyişən, gələcəyini işıqlı yola çevirən bir müqəddəs rəqəmə çevrildi. 44 rəqəmi tarixin şanlı səhifəsinə böyük qürur hissi ilə yazıldı. Qəlbimizdə əbədi məskən salan Zəfər dastanı hər birimizin xatirəsində əbədi məskən saldı. Bu, Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən siyasət, onun dəmir iradəsi, xalqımızın milli birliyi və Azərbaycan Ordusunun şücaətinin mükafatıdır. Bunu qoruyub saxlamaq üçün hər bir azərbaycanlı Vətənini, torpağını sevməli və onun bütövlüyü yolunda vətəndaşlıq borcunu yerinə yetirməlidir.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

## Vətən müharibəsi şəhidinin xatirəsi anılıb




Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan Vətən müharibəsi şəhidi Ağasadıq Xəlil oğlu Aslanovun doğum günü ilə əlaqədar anım mərasimi keçirilib.

Anım mərasimi çərçivəsində şəhidimizin xidmət və döyüş yoldaşları onun məzarını ziyarət edib, üzərinə gül düzüb, ruhuna dualar oxuyub, xatirəsini ehtiramla yad ediblər.

Mərasimdə çıxış edənlər gizir Ağasadıq Aslanovun xidmət yolundan, döyüşlərdə göstərdiyi igidlikdən danışaraq şəhidimizlə bağlı xatirələrini bölüşüblər, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun Vətən müharibəsində qazandığı tarixi qələbədən, bu şanlı Zəfərin qazanılmasında igid oğullarımızın göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən söz açılıb.

Qeyd edək ki, gizir Ağasadıq Aslanov 1991-ci il martın 1-də Neftçala rayonunun Kür Qarabucaq kəndində dünyaya gəlib. Hərbi qulluqçumuz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlayan 44 günlük Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, noyabrın 7-də Şuşa şəhəri ətrafında gedən ağır döyüşlər zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində ağır yaralanıb. Tibb müəssisəsinə təxliyə olunan Ağasadıq Aslanov noyabrın 8-də şəhidlik zirvəsinə yüksəlib və Neftçala rayonunun Kür Qarabucaq kəndində son mənzilə yola salınıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, Ağasadıq Xəlil oğlu Aslanov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

## Nümunəvi hərbçi, təcrübəli aşpaz

İnsan istənilən peşəni seçməzdən əvvəl onu sevir, yiyələndiyi peşəni sevən insan isə həmişə uğur qazanır. Onun çalışdığı kollektivdə hörmət, nüfuz sahibi olacağı da şübhəsizdir. O zaman insan əldə etdiyi uğurdan qürur duyacaq. Kiçik çavuş Ramil Mürsəlov da məhz belə hərbçilərdəndir.

Ramil 13 ildir xidmət edir. O, uşaqlıqdan aşpazlığa meyil göstərib. Əsgərlikdən qayıdandan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu aşpaz olmaq məqsədilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində yaradılmış kursa qəbul olmaq qərarına gəlib. Qəbul olmaq üçün lazım olan sənədləri toplayıb. Əvvəlcə müsabiqədən keçib, daha sonra imtahanı uğurla verib. Aşpazlıq kursunda təhsil aldığı müddətdə peşəsinin sirlərinə dərindən yiyələnib. Həmişə yaxşı oxumağa can atıb. Praktiki olaraq da dadlı xörəklər bişirməyi öyrənib.

Kapitan Qadir Abbasov bildirdi ki, Ramil bacarıqlı aşpaz olmaqla yanaşı, yüksək intizamlı hərbi qulluqçudur.

Ortaboy, çevik hərəkətləri ilə seçilən Ramil Mürsəlov Kəlbəcər rayonunun Yanşaq kəndində anadan olub. İki yaşı tamam olmamış Kəlbəcər rayonu erməni silahlı birləşmələri tərəfindən işğal edilib. Ramilin valideynləri ev-eşiyini, doğma yurd-yuvasını tərk etmək məcburiyyətində qalıblar. Onlar həmin vaxtı Göygöl rayonunun Çaykənd kəndinə pənah gətiriblər. Ramil də burada böyüyüb boya-başa çatıb. Onun da həmişə doğma Kəlbəcərə, Yanşaq kəndinə qayıtmaq arzusu olub. Daha yaxşı bildiyi, çalışdığı sahə üzrə Vətənə, dövlətə xeyir vermək istəyib. Torpaqları azad etmək üçün özünü də ön cəbhədə, ön sırada görmək istəyib. Kiçik çavuş Ramil Mürsəlovu da sonradan ordu sıralarına qaytaran məhz onun doğma el-obaya olan sevgisi olub.



- Kəlbəcər ermənilər tərəfindən işğal olunanda lap kiçik yaşda olmuşam. Amma böyüyəndə valideynlərimdən, məktəbdə müəllimlərimdən eşidirdim ki, ermənilər torpaqlarımızı işğal edib, bir milyondan artıq soydaşımız doğma yurdundan didərgin düşüb. Ermənilərin torpaqlarımızı işğal etməyi mənə çox pis təsir edirdi. Böyüyəndə mütləq hərbçi olmağı düşünürdüm. İstəyirdim ki, ermənilərin işğal etdikləri əraziləri azad edən döyüşçülər arasında mən də olum. Bu istək, bu amal idi məni hərbi xidmətə sövq edən. 2016-cı ilin Aprel döyüşlərində də iştirak etmişəm. İkinci Qarabağ müharibəsi başlayanda xidmət etdiyim hərbi hissə dərhal döyüşlərə cəlb olundu. Atıcı kimi döyüşlərə qatılmaq istəsəm də, komandanlıq aşpaz kimi xidmətimi davam etdirməyi vacib bildi. Kəndlər, qəsəbələr, şəhərlər düşmən tapdağından azad edildikcə sevincimin həddi-hüdudu yox idi. Cəbrayıl, Qubadlı, Laçın rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə xidmət etdiyim hərbi hissə döyüşüb. Döyüşçülərin dadlı və isti yeməklərlə vaxtlı-vaxtında təmin olunmasında aşpaz kimi xidmətim böyük olub, - kiçik çavuş R.Mürsəlov dedi.

Kiçik çavuş Ramil Cəmaləddin oğlu Mürsəlov hazırda yeni tikilib istifadəyə verilən yeməkxanada aşpaz vəzifəsində xidmətini davam etdirir. Komandirlər də, əsgərlər də onun bişirdiyi dadlı, duzlu xörəklərdən ağızdolusu danışırlar. Ramil bunun sirrini peşəsinə sevgidə, işinə məsuliyyətdə, verilən ərzaqların tam həcmdə və müxtəlif ədviyyatların əlavə edilməsində görür.

Aşpaz Ramil Mürsəlov hər gün şəxsi heyətə bişirilən yeməklərin keyfiyyətinə, mətbəxdəki səliqə-sahmana və burada çalışan digər aşpazların da fəaliyyətinə nəzarət edir.

Artıq yeməklər bişib, hazırdır. Şəxsi heyətin nahar vaxtına az qalıb. O, köməkçi aşpazlara vaxt itirmədən yeməklərin paylanması üçün hazırlıqların yekunlaşdırmağı tapşırır. Aşpaz Ramil Mürsəlovun bişirdiyi çeşidli, dadlı xörəklərdən əsgərlər razıdırlar.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



*Samara vilayətindəki Azərbaycan diasporunun nümayəndələri Birinci Qarabağ müharibəsi zamanı həlak olmuş Azərbaycanın Milli Qəhrəmanı Sergey Senyuşkinin Sızran şəhərindəki məzarını ziyarət ediblər.*

*Heç kim unudulmur*

## Azərbaycanın Milli Qəhrəmanının xatirəsi Sızranda ehtiramla yad edilib





AZƏRTAC xəbər verir ki, anım tədbiri Samara vilayətindəki Azərbaycan diasporunun fəalları Elmar Rəsulov, Ələsgər Əlifov və Əzim Əzizov tərəfindən təşkil olunub. Onlar qəhrəmanın məzarına gül dəstələri qoyub və Azərbaycan torpaqlarının azad edilməsi uğrunda döyüşlərdə həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Qəhrəmanın bacısı Lyudmila Dolbilovaya Azərbaycan Respublikası Milli Qəhrəmanlarını Tanıtma İctimai Birliyinin adından təşəkkür məktubu və xatirə hədiyyəsi təqdim edilib. Sergey Senyuşkinin doğmaları qəhrəmanın xatirəsinə və tarixi yaddaşın qorunmasına göstərdikləri diqqətə görə qonaqlara minnətdarlıqlarını bildiriblər.

Sergey Senyuşkin Samara vilayətində anadan olub. Birinci Qarabağ müharibəsi zamanı Zaqafqaziya hərbi dairəsində zabit kimi xidmət edən Sergey Senyuşkin könüllü olaraq Azərbaycana gəlib və burada döyüşlərdə iştirak edərək cəsarət və yüksək peşəkarlıq nümayiş etdirib. O, 1992-ci ildə Xocalıda döyüş tapşırığını yerinə yetirərkən həlak olub. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ona ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Azərbaycanda küçələrdən biri onun adını daşıyır.

Milli Qəhrəmanın həyat yoldaşı və oğlu Azərbaycanda yaşayırlar.

*Tarix yazan oğullar*

# "El igidləri ilə tanınar"



***"El igidləri ilə tanınar" və bu qəbildən olan digər atalar sözləri cəsur, vətənpərvər, torpaqlarımızın azadlığı uğrundan canından keçən igid oğullarımızla xalqımızın hər zaman qürur duyduğunun göstəricisidir. Bu atalar sözləri cəsarətin, fədakarlığın və Vətəni qorumağın müqəddəsliyinin nişanəsidir. Əsrlərdən bəri tariximiz qəhrəmanlıq salnaməsi, analarımız qəhrəmanlar anası kimi xatırlanıb. Əsr-əsr, qərinə-qərinə döyüş meydanlarında igid oğullarının şücaəti ilə seçilən xalqımız, XX əsrin sonlarında yeni qəhrəmanlıq nümunələri ilə tarixə iz qoydu. Doğma yurdlarının nisgilini, ağrısını uşaqlıqdan hiss edən, torpaq həsrətini qəlblərində yaşadan və canlarını torpaqlarımızın azadlığı, ölkəmizin suverenliyi uğrunda qurban verən igidlərimiz tariximizin şanlı Zəfər səhifələrini yazdılar.***

Şəhid polkovnik-leytenant Əkrəm Yunus oğlu Şadmanov da belə igid oğullarımızdan biridir. Onun həyatı peşəkar hərbçi karyerası ilə yanaşı, Vətənə sədaqətin, sonsuz Vətən sevgisinin və fədakarlığın nümunəsidir. Dünyaya göz açdığı Kəlbəcərin işğalını uşaqlıq çağında yaşayan Əkrəm Şadmanov həyatını hərb peşəsinə bağlayan, peşəkar və savadlı zabitlərimizdən olub. O, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətlə və fədakarlıqla adını tariximizə yazdırıb.

Şadmanov Əkrəm Yunus oğlu 1 mart 1984-cü ildə Kəlbəcər rayonunun Zivel kəndində anadan olub. 1990-cı ildə doğma kəndində orta təhsilə başlayıb. 1993-cü ildə Kəlbəcərin işğalından sonra təhsilini əvvəl Göygöl (keçmiş Xanlar) rayonunun 6 nömrəli məktəbində, daha sonra Abşeron rayonunun Xırdalan qəsəbəsində yerləşən Kəlbəcər rayon 20 nömrəli orta məktəbində davam etdirib. 1998-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olunub və 2001-ci ildə oranı uğurla başa vurub. Həmin il indiki Heydər Əliyev adına Hərbi İnstituta daxil olub və 2005-ci ildə "motoatıcı" ixtisası üzrə fərqlənmə diplomu ilə məzun olub.

İkinci Qarabağ müharibəsi başlayana kimi müxtəlif hərbi hissələrdə müvafiq vəzifələrdə xidmət edib, təkmilləşdirmə və ixtisasartırma kurslarına qatılıb. Bir sözlə, peşəkar zabit kimi formalaşmaq üçün daim öz üzərində çalışıb və rəhbərliyin etimadını həmişə doğruldub.

44 günlük Vətən müharibəsində Qubadlı və Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə iştirak edib, bir sıra strateji yüksəkliklərin azad olunmasında və Şuşa ətrafındakı mövqelərin müdafiəsində yüksək idarəçilik bacarığı və şəxsi igidlik nümunələri göstərib. Müharibədən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "İgidliyə görə", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Polkovnik-leytenant Əkrəm Şadmanov müharibədən sonra ordumuzun həyata keçirdiyi digər uğurlu döyüş əməliyyatlarının da iştirakçısı olub. Qarabağ Zəfərinin davamı olaraq ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası, ərazilərimizdə erməni separatizminin kökünün kəsilməsi məqsədilə 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı antiterror əməliyyatı baş tutdu. Əkrəm Şadmanov bu əməliyyat zamanı da tabeliyində olan şəxsi heyətlə birlikdə verilən döyüş tapşırıqlarının öhdəsindən müvəffəqiyyətlə gəlib. 24 sentyabr 2023-cü ildə Ağdam rayonunun Gülablı kəndi yaxınlığında döyüş mövqelərinə baxış keçirən zaman hərəkət etdiyi avtomobil düşmənin basdırdığı minaya düşüb və polkovnik-leytenant Əkrəm Şadmanov şəhidlik zirvəsinə ucalıb. O, Bakı şəhərində Hərbi Memorial Məzarlıqda dəfn olunub. Şəhidimizin Solmaz adlı qızı və Araz adlı oğlu Vətənə əmanət qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli Sərəncamı ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qeyd edək ki, onun qardaşı, Vətən müharibəsi iştirakçısı polkovnik Nəsimi Şadmanov da torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə, xüsusilə Şuşa istiqamətində göstərdiyi igidliyə görə yüksək dövlət təltiflərinə layiq görülüb.

Polkovnik-leytenant Əkrəm Şadmanovun xidməti və döyüş yolu sübut etdi ki, Vətən sevgisi sözlə deyil, əməl və fədakarlıqla ölçülür. O, doğulduğu torpağın işğalını görən bir uşaqdan həmin torpaqların azadlığı uğrunda döyüşən və canını fəda edən bir zabitə çevrildi. Onun adı artıq təkcə ailəsinin deyil, bütöv bir xalqın qürur mənbəyidir. Şəhidlik zirvəsi onun ömrünü yarımçıq qoysa da, Vətən qarşısında xidmətləri tariximizdə əbədi yaşayacaq. Belə oğullarımız heç vaxt unudulmurlar. Xalqımız Vətən uğrunda canını qurban verən igid övladlarının əziz xatirəsini həmişə yad edir, onları əbədi xatirə kimi qəlbində yaşadır.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

## "Türkiyə bölgədə davamlı sülhün tərəfdarıdır"

Türkiyə regionda davamlı sülhü dəstəkləyir. Biz qan tökülməsinə qarşıyıq.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Ankarada hakim Ədalət və İnkişaf Partiyasının rəsmiləri qarşısında çıxış edərkən bildirib.

O, qonşu İrana edilən zərbələri beynəlxalq hüququn açıq şəkildə pozulması adlandırıb. "Bu zərbələr nəticəsində, Ali Rəhbər Ayətullah Seyid Əli Xamenei də daxil olmaqla, çox sayda iranlı qardaş və bacı, günahsız uşaqlar həlak olub",- deyə dövlət başçısı bildirib.

Türkiyə lideri ölkəsi və xalqı adından İran xalqına başsağlığı verib.

Onun sözlərinə görə, hər hansı bir müharibədə olduğu kimi münaqişənin əsas yükünü mülki şəxslər daşıyırlar.

"Türkiyə münaqişənin ilk günündən diplomatik həll yolu tapmağa çalışıb. Bölgədəki dost və qardaş ölkələrlə birlikdə gərginliyin daha da artmasının qarşısını almaq üçün əlimizdən gələni etdik, lakin danışıqlar istənilən nəticəni vermədi. Fars körfəzindəki qardaşlarımız da qarşılıqlı hücumlardan əziyyət çəkdilər", - deyə o vurğulayıb.

Prezident Ankaranın atəşkəs rejiminin bərqərar olması və bölgədə sakitliyin bərpası üçün bütün səviyyələrdə təmasları gücləndirəcəyini bildirib. "Türkiyə özü üçün istədiyini qonşuları üçün də istəyir. 1639-cu ildən bəri dinc yanaşı yaşadığımız İran xalqı bölgədəki digər xalqlar kimi bizim də qardaşlarımızdır", - deyə Rəcəb Tayyib Ərdoğan əlavə edib.

Medallı igidlərimiz

# Vətənə xidmət ömrün mənasıdır

*Azərbaycan Ordusunun yüzlərlə peşəkar, vətənpərvər zabiti respublikamızın ərazi bütövlüyünün qorunmasında, müdafiəsinin və suverenliyinin təmin olunmasında fəal iştirak edərək şərəfli xidmət yolu keçib. Belə zabitlərdən biri də "N" hərbi hissəsinin zabiti mayor Ramiz Abdullayevdir.*

İnsanı doğulub böyüdüyü, boya-başa çatdığı mühit yetişdirir, gələcək ömür yoluna işıq salır. Ramiz də ömür yolunu yaşadığı, yetişdiyi mühitin işığı ilə seçib . Onun uşaqlıq dövrü, orta məktəb illəri müharibə şəraitinə düşüb. Ramizin qəlbində hərbçi olmaq, Vətənimizin müdafiəsində dayanmaq, torpaqlarımızın erməni işğalçılarından azad edilməsində iştirak etmək arzusu olub. O, Vətənə xidməti ömrünün mənası hesab edib. Hələ orta məktəbin ibtidai sinfində oxuyarkən hərbçi olacağını valideynlərinə, doğmalarına, müəllimlərinə və dostlarına söyləyib. Hər kəs də ona seçdiyi peşənin müqəddəs və şərəfli olduğunu deyib, uğurlar arzulayıb. Birinci Qarabağ müharibəsi illəri onun orta məktəbdə oxuduğu dövrə düşsə də, artıq gənc yaşlarında Vətən torpaqlarımızın ərazi bütövlüyü naminə əyninə əsgər paltarı geyinib döyüşlərə atılmağa hazır idi...

Ramiz Əliağa oğlu Abdullayev 1 noyabr 1979-cu ildə Cəlilabad rayonunun Buravar kəndində əməksevər bir ailədə doğulub. Bu kəndin camaatı torpaqsevərliyi, vətənpərvərliyi, mərd, qorxmaz oğulları ilə seçilib.

Cəlilabad rayonunun neçə-neçə igid oğlu Vətənin başı üzərini qara buludlar alanda könüllü olaraq özünümüdafiə dəstələrinin sıralarına yazılır, düşmənə sinəsini sipər edir. Bütün bunlar kiçik yaşlarından Ramizin yaddaşında dərin izlər qoyur. Hələ kiçik yaşlarında yaşadığı müharibə şəraiti ona hərbi formanı, əsgər geyimini sevdirir...

Orta məktəbi əla qiymətlərlə başa vuran Ramiz Azərbaycan Beynəlxalq Universitetini fərqlənmə diplomu ilə bitirir. 9 iyul 2001-ci ildə ordumuzun çətin dağ relyefində yerləşən "N" hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayır. O, şəhid general-mayor, "Azərbaycanın Milli Qəhrəmanı" Polad Həşimovun əsgəri olmaqdan hər zaman qürurlandığını deyir. Öyrənirik ki, Ramiz Abdullayev Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində (indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi) "Ehtiyat zabit hazırlığı kursu"nu keçir.



14 iyul 2002-ci ildə kursun birinci buraxılışının zabitlərindən biridir. O, "leytenant" hərbi rütbəsində ön xətt bölmələrimizdə, ordumuzun sıralarında Vətənə şərəflə xidmət edib və Ali Baş Komandanın döyüş əmrinə hər an hazır olub.

Mayor Ramiz Abdullayev hərbi hissənin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasına, peşəkarlığının, nəzəri biliklərinin daha da artırılmasına hər zaman səy göstərdiyini vurğuladı: "Azərbaycan Ordusunda aparılan genişmiqyaslı islahatların davamı olaraq, 44 günlük Vətən müharibəsindən sonra da hərbi hissəmizin döyüş potensialı gündən-günə gücləndirilir. Ordumuz dünyanın ən müasir orduları sırasında yer alıb. Şəxsi heyət peşəkarlığını daima artırır. Təbii bir prosesdir ki, təlimlərə, məşğələlərə müasir yanaşmalar var, tələblər ciddidir. Bütün bunların mükəmməl şəkildə tətbiqi müasir ordu quruculuğunun inkişafına əsaslı şəkildə güclü təkan verir".

Mayor R.Abdullayev ordumuzun vətənpərvər və daima peşəkarlığını artırmağa can atan zabitlərindəndir. O, şəxsi heyətin mənəvi-psixoloji hazırlığında iştirakçısı olduğu 2016-cı ilin Aprel döyüşlərinin tarixi əhəmiyyətindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən, uğurlu, antiterror əməliyyatından, qəhrəman Vətən oğullarının igidliyindən, şəhidlərimizin xalqımızın haqq mübarizəsində canlarından keçməsindən geniş danışır, məlumatları diqqətə çatdırır.

Vətənpərvər zabit 2016-cı ilin Aprel döyüşləri zamanı "N" hərbi hissəsinin motoatıcı taborunda Ağdərə-Tərtər istiqamətində gedən ağır döyüşlərdə iştirak edib. 27 sentyabr 2020-ci il tarixində Ağdamın Hacıməmmədli kəndi istiqamətində gedən ağır döyüşlərin iştirakçısı olub. Oktyabrın 10-da düşmən artilleriyasının zərbəsinə tuş gələrək ağır kəllə-beyin travması alıb. 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilən antiterror əməliyyatında iştirak edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə mayor Abdullayev Ramiz Əliağa oğlu "Ağdamın azad olunmasına görə" medalına layiq görülüb.

Mayor R.Abdullayev şəhidlərimizin xatirəsinin daima uca tutulacağını, onların adlarının xalqımızın qəlbində əbədi yaşayacağını vurğuladı. "O oğullar torpaqlarımızın azadlığı, xalqımızın haqq işi uğrunda şəhid oldular. Məkanları cənnət olsun. Vaxtilə komandirim olmuş şəhid general-mayor, "Azərbaycanın Milli Qəhrəmanı" Polad Həşimovu, şəhid olmuş vətənpərvər, peşəkar zabit yoldaşlarımı unutmaram, o oğullar özlərindən sonra əsl qəhrəmanlıq məktəbi yaratdılar. Şəhidlərimiz milli-mənəvi dəyərlərimizi uca tutdular, torpaq, Vətən heysiyyatımıza əbədiyaşarlıq qazandırdılar".

Ramiz kimi vətənpərvər zabitlərimiz şəhidlərimizin ömürlərini ömürlərində yaşadaraq, bunu da Vətənə xidmətin mənası hesab edirlər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

---

(Əvvəli 1-ci səhifədə)

Fiziki hazırlıq

# İdman döyüş qabiliyyətinin əsas amilidir

Döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması üçün hərbi hissələrdə yaradılan infrastruktur, müasir idman şəhərcikləri və təlim meydançaları şəxsi heyətin hərtərəfli inkişafına xidmət edir. Hər bir əsgər xidmətə başladığı ilk gündən etibarən müxtəlif fiziki sınaqlardan keçir, öz gücünü və dözümlülüyünü artırmaq üçün peşəkar təlimçilərin nəzarəti altında çalışır. Bu məşqlər sadəcə bədən əzələlərini deyil, həm də əsgərin psixoloji dözümlülüyünü, çətin anlarda soyuqqanlılığını qorumaq bacarığını formalaşdırır. Güclü əsgər qarşılaşdığı hər bir maneəni dəf etməyə hazır olan, fiziki yorğunluq hiss etsə belə, ruhdan düşməyən döyüşçüdür. Məhz bu məqsədlə keçirilən növbəti fiziki hazırlıq məşğələsində şəxsi heyətin normativləri yerinə yetirməsi, habelə müxtəlif hərbi-idman elementləri üzrə bacarıqlarının təkmilləşdirilməsi prosesi yüksək nizam-intizam şəraitində davam etdirilirdi.

Məşğələ rəhbəri peşəkarlığı və tələbkarlığı ilə seçilən gizir Aslan Fikrət oğlu Qurbanov əsgərlərin hər bir hərəkətini diqqətlə izləyir, onlara tapşırıqların icrası zamanı yol verilən xırda detalları belə düzəltməkdə köməklik göstərirdi. O, fiziki hazırlığın hərbçi üçün həyati vacib olduğunu öz şəxsi təcrübəsi və hərbi bilikləri ilə əsaslandıraraq şəxsi heyətə müraciət etdi: "Hər bir Azərbaycan əsgəri dərk etməlidir ki, fiziki güc döyüş meydanında həm qələbənin, həm də özünü və yoldaşını qorumağın ən əsas şərtidir.



Bizim məqsədimiz sizi təkcə müəyyən edilmiş normativləri sənəd üzərində yerinə yetirməyə deyil, ən sıldırım qayalıqlarda, qarlı dağlarda və keçilməz meşələrdə yorulmadan tapşırıq icra etməyə hazırlamaqdır. Güclü əsgər məğlubedilməz ordunun ən sağlam sütunudur, ona görə də hər bir idman hərəkətinə sanki real döyüş meydanındaymış kimi ciddi və məsuliyyətlə yanaşmalısınız. İradənizi polladlaşdırın ki, ən amansız sınaqlar qarşısında belə biləyiniz bükülməz, diziniz titrəməz olsun. Bilin ki, bu gün tökdüyünüz hər damla tər sabahkı döyüşlərdə bizim qələbə zəmanətimizdir".

Gizirin bu ruhlandırıcı sözləri əsgərlər arasında böyük coşqu yaratdı və məşğələyə olan marağı daha da artırdı. Praktik məşqlər zamanı hər bir əsgər verilən tapşırıqları yüksək keyfiyyətlə icra etməyə çalışırdı. Əsgər Fərid Zeynalov bu barədə öz fikirlərini bölüşərək qeyd etdi ki, gündəlik olaraq icra etdikləri intensiv idman hərəkətləri onun özünə olan inamını əsaslı şəkildə artırıb və artıq ən ağır hərbi təchizatla belə kilometrlərlə məsafəni heç bir çətinlik çəkmədən qət edə bilir. Digər bir istiqamətdə məşqləri davam etdirən əsgər Rüfət Salmanlı isə fiziki hazırlığı hərbi intizamın bir forması kimi dəyərləndirərək bildirdi ki, bədən quruluşu və forması qaydasında olan hərbçinin zehni qabiliyyətləri də həmişə iti olur. Onun sözlərinə görə, fiziki dözümlülük insanda soyuqqanlılıq yaradır ki, bu da döyüş zamanı qəfil və düzgün qərarlar vermək üçün mühüm əhəmiyyət kəsb edir.

Məşğələnin gedişatında maneələr zolağını və mürəkkəb dırmanma elementlərini uğurla başa vuran əsgər Elton Məmmədbəyov vurğuladı ki, orduda keçirilən idman dərsləri sadəcə bədəni inkişaf etdirmir, həm də silahdaşlarla birlikdə sinxron hərəkət etmək bacarığını, yəni, komanda ruhunu daha da möhkəmləndirir. O, hesab edir ki, əsgər təkbaşına güclü ola bilər, lakin birgə fiziki hazırlıq bölmənin bütöv bir yumruq kimi birləşməsinə xidmət edir. Məşğələni fəal şəkildə davam etdirən əsgər Rəsul Əlizadə isə əlavə etdi ki, XXI əsr müharibələri texnologiya üzərində qurulsa da, insanın fərdi çevikliyi, reaksiya sürəti və fiziki-psixoloji dözümlülüyü hər zaman həlledici amil olaraq qalacaqdır. O, fiziki hazırlığın hər bir hərbi qulluqçu üçün Vətəni layiqincə müdafiə etmək üçün mənəvi borc olduğunu da diqqətə çatdırdı.

Fiziki hazırlığın bu dərəcədə dərindən mənimsənilməsi həm də əsgərlərin orqanizminin müxtəlif iqlim və relyef şəraitinə adaptasiyasını təmin edir. Məlumdur ki, Vətənimizin coğrafi relyefi rəngarəngdir və hərbi əməliyyatların aparıla biləcəyi ərazilər fərqli hazırlıq səviyyəsi tələb edir. Bu baxımdan gizir Aslan Qurbanovun nəzarəti altında keçirilən məşğələlər əsgərlərə təkcə düzənlik ərazilərdə deyil, həm də çətin keçilən yüksəkliklərdə çevik manevr etmək vərdişləri aşılayır. Bu cür intensiv hazırlıq prosesi hər bir əsgərdə "mən bacararam" hissini formalaşdırır, qorxu və tərəddüdü aradan qaldırır.

Fiziki hazırlıq məşğələləri ordunun döyüşə hazırlıq planının sadəcə bir bəndi deyil, hər bir hərbçinin həyat tərzinə çevrilir.

Yekun olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Ordusunun bu gün nümayiş etdirdiyi yüksək hazırlıq səviyyəsi sistemli və ardıcıl fəaliyyətin məntiqi nəticəsidir. Şəxsi heyətin göstərdiyi peşəkarlıq, hərbi nizam-intizam və fiziki sarsılmazlıq xalqımızın öz ordusuna olan inamını daha da möhkəmləndirir. Bu cür yüksək hazırlıqlı əsgərlər hər an Vətən torpaqlarının müdafiəsinə, istənilən təhdidin qarşısını qətiyyətlə almağa qadirdirlər. Gizir Aslan Qurbanov və onun rəhbərlik etdiyi əsgər heyətinin timsalında görünən bu əzmkarlıq Azərbaycan əsgərinin mənəvi və fiziki gücünün təcəssümüdür. Belə peşəkar, dözümlü və vətənpərvər ordusu olan bir millət hər zaman əmin ola bilər ki, onun suverenliyi və təhlükəsizliyi etibarlı əllərdədir. Məhz bu hazırlıq və əzmkarlıq ordumuzun yenilməzliyinin rəmzi olaraq tariximizə qızıl hərflərlə yazılır və gələcək nəsillər üçün bir örnək təşkil edir.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı.**

**Suallar:**

1. IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı.
2. Xürrəmilərin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə.
3. Xürrəmilər hərəkatının əhəmiyyəti.

### IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı

VII əsrin əvvəllərində Ərəbistan yarımadasında güclü bir feodal dövləti meydana gəldi. Asiyada, Afrikada və Avropada İslam dinini yaymaq siyasəti yeridən ərəblər İranın Rey və Qəzvin şəhərlərini işğal etdikdən sonra 639-cu ildə sərkərdə Hüzeyfənin başçılığı ilə Azərbaycana daxil oldular.

VIII əsrin ortalarında Əməvilər sülaləsinin siyasətinə qarşı Xilafətin mərkəzində və asılı ölkələrdə, o cümlədən Azərbaycanda da mübarizə kəskinləşdi. Xilafətin soyğunçu vergi siyasəti və məmurların özbaşınalığı, dəhşətli istismar və hüquqsuzluq, yerli feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması, güclü ərəbləşdirmə siyasəti və başqa səbəblər əhalinin vəziyyətini ağırlaşdırmaqla yanaşı, ümumxalq qəzəbini coşdururdu. Azərbaycanda çıxışlar 748-752-ci illərdə geniş vüsət aldı. Üsyanda əhalinin bütün təbəqələri iştirak edirdi və onlara yerli feodallar başçılıq edirdilər. Ərəblərə qarşı 748-ci ildə Beyləqanda başlamış ilk üsyan tezliklə digər vilayətləri, xüsusilə Bərdəni və Ərdəbili əhatə etdi. Xalq hərəkatı Azərbaycanın digər əyalətlərini və bütün ön Qafqazı bürüdü. 752-ci ildə üsyan amansızlıqla yatırıldı. Lakin VIII əsrin 2-ci yarısında Azərbaycanda Xilafətə qarşı çıxışlar yenidən gücləndi.

Azərbaycanda azadlıq mübarizəsinin parlaq səhifələrindən biri ərəb xilafətinə qarşı Xürrəmilər (qədim pəhləvi dilində əbədi od, günəş) hərəkatıdır. Onların şüarı torpağı və istehsal vasitələrini hakim təbəqənin asılılığından xilas etmək idi. Xürrəmilər sosial bərabərlik uğrunda mübarizə aparır, bütün təbəqələrdən olan gənclər üçün istismarsız kəbin hüququ azadlığı, maddi nemətləri insanlar arasında bərabər bölüşdürmək kimi tələblər irəli sürürdülər. Xürrəmilər Azərbaycanın istiqlaliyyətini bərpa etmək, Vətəni yadellilərdən qurtarmağa çalışırdılar.

Xürrəmilərin ərəb xilafətinə qarşı mübarizənin birinci mərhələsini 748-816-cı illəri (Cavidanın üsyana rəhbərlik etdiyi və ona qədərki dövr), II dövrü 816-837-ci illəri (Babəkin üsyana rəhbərliyi öhdəsinə götürdüyü tarixdən Bəzz qalasının süqutuna qədər) və Xürrəmilər hərəkatından sonrakı dövr 838-840-cı illəri (Təbəristanda Karinlər sülaləsindən olan son əmir Məzyərin, ya da Mahyədigə ibn Karin ibn Vanda Hürmüzün rəhbərliyi ilə üsyan və Məzdəkilər hərəkatı) əhatə etmişdir.

### Xürrəmilərin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə

Xürrəmilərin ərəblərə qarşı azadlıq mübarizəsi 61 il davam etmişdir. Bu mübarizənin xeyli hissəsinə Bəzz qalasının sahibi Cavidan rəhbərlik etmişdir. Xürrəmilər Cavidanın rəhbərliyi altında xilafətə qarşı iki dəfə - 778 və 808-ci illərdə üsyan etmişlər. 808-809-cu illərdə Azərbaycanda Abbasi üsuli-idarəsinə qarşı yönəldilmiş və yüz mindən artıq adamın qoşulduğu üsyanın yatırılmasına ərəb sərkərdəsi Abdulla ibn Malikin başçılığı altında on minlərlə atlı göndərildi. Üsyan amansızlıqla yatırıldı, üsyançıların çoxu öldürüldü, əsir alınmış kişiləri xəlifə Harun ər-Rəşidin göstərişi ilə öldürdülər, qadın və uşaqları isə qul kimi satdılar. Uğursuzluqla nəticələnməsindən sonra Xürrəmilərin Xilafətə qarşı çıxışları ara verdi. Xürrəmilərin rəhbərləri olan Cavidan və Əbu İmran bu zaman ədavətə başlamış, aralarındakı münasibətləri aydınlaşdırmaqla məşğul olmuşdular. 816-cı ildə yerli feodal Əbu İmranla döyüşdə Cavidan ağır yaralanaraq aldığı yaradan öldü. Cavidanın ölümündən sonra Xürrəmilər hərəkatına onun köməkçisi Babək rəhbərlik edir. Əsrlərdən bəri adı qəhrəmanlıq rəmzinə çevrilmiş Babək öz zəmanəsinin cəsur sərkərdəsi və görkəmli siyasi xadimi idi.

Babək 798-ci ildə (bəzi mənbələrə görə 795-ci ildə) Ərdəbil yaxınlığında Bilalabad kəndində anadan olmuşdur. Babək gənc yaşlarında bir neçə il çobanlıq etmiş, iki il Təbrizdə sənətkar yanında şagird olmuş, sonra Cavidanla rastlaşıb xürrəmilərin paytaxtı Bəzzə getmişdi.

Babək Xürrəmilər icmasında rəhbərliyi qəbul edən zaman onun tərəfdarlarının sayı kifayət qədər çox deyildi. O, Xürrəmilərə silah paylayıb göstəriş verdikdən sonra əlverişli məqam çatana kimi gözləmələrini tapşırdı. Həmin müddətdə Babək öz adamlarını Azərbaycanın hər tərəfinə göndərərək ölkəni xilas etmək üçün onları ərəblərə qarşı azadlıq mübarizəsinə çağırdı. Ölkənin hər tərəfindən minlərlə insan Babəkin bayrağı altında toplandı. Bəzi mənbələrə görə, Babəkin ordusunda təkcə atlılar 20 min nəfər idi. Azadlıq ordusunun əsas hərəkətverici qüvvəsini kəndlilər təşkil etsə də, orada şəhər yoxsulları, sənətkarlar, orta və xırda feodallar, əhalinin müxtəlif təbəqələrinə mənsub adamlar da az deyildi.

Xürrəmilər xilafət orduları üzərində parlaq qələbələr çalaraq Azərbaycanı onlardan təmizlədikcə azadlıq mübarizəsinə qoşulanların sayı artırdı. Azərbaycanın cənubunda Babək tərəfdarlarının sayı artıq 300 min nəfərə çatırdı.

819-cu ildə xəlifə Xürrəmilərə qarşı ilk nizami ordu göndərdi. Xürrəmilər düşməni məğlub edərək, Bərdəni, Beyləqanı, Qarabağı, Arranın bir sıra əyalət və şəhərlərini azad etdilər. Babəkin əsas tərəfdarları (Z.Bünyadovun qənaətinə görə), ermənilərdən fərqli olaraq, alban knyazları idi. IX əsrin 20-ci illərinin sonuna doğru azadlıq mübarizəsi genişlənərək Xilafəti sarsıtdı. Göndərilən güclü ərəb ordusu iki il hazırlıqdan sonra 829-cu il iyunun 3-də Həşdadsər dağında Xürrəmilərlə həlledici savaşı başladı. Məqsəd Bəzz qalasını ələ keçirmək idi. 150 minlik ərəb ordusundan 30 min nəfəri məhv edildi. Xəlifənin səvimli sərkərdəsi Məhəmməd əl-Tusi öldürüldü. Bu, ərəb orduları üzərində xürrəmilərin 5-ci qələbəsi idi.

IX əsrin 30-cu illərinin əvvəlləri azadlıq mübarizəsinin ən uğurlu dövrü idi. Üsyançılar xilafəti lərzəyə salmışdılar. 833-cü ilin sonunda Həmədan şəhəri yaxınlığında xürrəmilər ilk dəfə ağır məğlubiyyətə uğradılar. Onların itkisi 60 mindən 100 minə qədəridi. Xəlifə Bizansla müharibəni dayandıraraq dövlətin fəaliyyətini, bütün ordunu, maddi və hərbi sursatı xürrəmilərə qarşı yönəltdi. Orduya göndərilən ərzağın, silahın və pulun çatdırılması üçün tədbirlər görüldü. 835-ci ildə xəlifə Mötəsim məşhur sərkərdə Afşin Heydər ibn Kavusu xürrəmilərə qarşı döyüşən ərəb ordusunun baş komandanı təyin etdi. Türk mənşəli olan Afşin öz qərargahını xürrəmilərin istehkamına yaxın olan Bərzəndə köçürdü və əks kəşfiyyatı gücləndirdi. Kəşfiyyat məlumatı toplamaq, xürrəmilər arasında təfriqə salmaq, onların ən yaxşı sərkərdələrini aradan götürmək gündəlik işə çevrildi.

Azadlıq müharibəsinin illərlə uzanması və geniş əraziləri əhatə etməsi xürrəmilərdə rəhbərliyin işini çətinləşdirirdi. Əhali uzunsürən müharibədən yorulmuşdu. Düşmənə isə müntəzəm olaraq yeni qüvvələr gəlirdi. Afşinin tədbirlərindən qorxuya düşən yerli iri feodallar, Babəkin sadiq tərəfdarları və müttəfiqləri Səhl İbn Sumbat, İbn Bəis, Əbu Musa və b. tədricən ondan uzaqlaşdılar. Xəyanət nəticəsində Babəkin cəsur sərkərdəsi İsma əsir alındı, 836-cı ildə isə daha bir sərkərdə - Tərxan öz evində öldürüldü. Müharibə uzandıqca qüvvələr nisbətindəki fərq ərəblərin xeyrinə dəyişirdi. Buna baxmayaraq, xürrəmilər 836-cı ildə Həşdadsər dağı yaxınlığında döyüşdə qələbə çaldılar. 837-ci ildə xəlifə Afşinin köməyinə iki böyük ordu göndərdi. Həmin ilin yayında Afşinin qoşunu Bəzz qalasını mühasirəyə aldı.

Azadlıq müharibəsinin ilk dövründə, üsyan sürətlə genişləndiyi şəraitdə mübarizəyə qoşulan, onları silahla, ərzaqla, pulla təmin edən yerli feodallar hərəkatın müəyyən məqamında mülk və imtiyazlarını itirəcəklərini güman edərək mübarizədən uzaqlaşdılar. Bununla belə, təcrübəli sərkərdə olan Babək ağıllı taktika ilə düşmənin planlarını pozur və onları çıxılmaz vəziyyətə salırdı.

Ərəb sərkərdəsi Afşin Babəkə sülh danışığına başlamağı təklif edərək, onu inandırmağa çalışırdı ki, bağışlanması haqqında xəlifədən fərman alacaq. Lakin Babək əqidəsindən dönməyərək vətənin istiqlaliyyətini şəxsi xoşbəxtliyinə qurban vermədi. Xəlifənin təklif etdiyi imtiyazları və hədiyyələri xalqına xəyanət kimi qiymətləndirdi. Belə olduqda həlledici döyüş labüd idi və 26 avqust 837-ci ildə baş vermiş son döyüşdə xürrəmilər məğlub oldu. Daha yaxşı silahlanmış və təchiz olunmuş ərəblər əlverişli vaxtda Babəkin ordusu üzərinə hücum etdilər. Bəzz qalasını hər tərəfdən mühasirəyə alan ərəblər qala divarlarını dağıtmaq üçün daş atan mancanaqlardan və neftlə isladılmış oxlardan da bacarıqla istifadə edirdilər. Qalanın müdafiəsinə Babəkin etibarlı və cəsur sərkərdəsi Adin başçılıq edirdi. Bütün günü davam edən qanlı döyüşdə düşmən əsgərlərindən dəfələrlə az olmalarına baxmayaraq, xürrəmilər misilsiz rəşadət göstərirdilər. Onların qeyri-adi mətanəti və igidliyi ərəbləri heyrətə gətirirdi. Vətənin cəngavər oğulları müqəddəs torpağımız uğrunda şəhid olmağı şərəf sayırdılar. Bəzz döyüşü orta əsrlər müharibələri tarixində ən çox insan qırğınına səbəb olan döyüşlərdəndir. Bu döyüşdə ərəblərdən 100 min nəfər, xürrəmilərdən 80 min nəfər həlak oldu. Afşinin göstərişi ilə Bəzz qalası dağıldıldı. Qala müdafiəçilərindən 7600 nəfər əsir götürüldü.

Bəzzin süqutundan sonra Babək qardaşı Abdulla ilə birlikdə köhnə müttəfiqi Səhl ibn Sumbat tərəfindən xəyanət yolu ilə tutularaq ərəblərə təhvil verildi. 838-ci il martın 14-də xəlifə Mötəsimin hökmü ilə Babək Samirə şəhərində edam edildi. IX əsrin 2-ci yarısından etibarən xilafətdən asılı ölkələrdə, o cümlədən Azərbaycanda bir sıra müstəqil dövlətlər meydana gəldi. Xilafətə tabe olan iri dövlətlərdə milli-azadlıq hərəkatları başlandı.

### Xürrəmilər hərəkatının əhəmiyyəti

Müvəffəqiyyətsizliklə nəticələnməsinə baxmayaraq, Babək hərəkatı bütün xilafəti lərzəyə salmış, Şərqdə ərəb hökmranlığına ağır zərbə vurmuşdu. Babək hərəkatı dövründə xilafətin təqribən 500 min əsgəri məhv edilmişdi. Xilafətin əsasını sarsıdan və onun dağılmasını xeyli sürətləndirən Babək hərəkatı qonşu xalqların azadlıq mübarizəsini xeyli yüngülləşdirdi və onların ərəb əsarətindən azad olmasını asanlaşdırdı. Xürrəmilərin məğlubiyyəti və Babəkin edamı Azərbaycanda, eləcə də xilafətin digər vilayətlərində ərəblərə qarşı mübarizəni dayandırmadı. 838-39-cu illərdə Təbəristanda Məzyarın başçılığı ilə üsyan başlandı. Üsyançılar xürrəmilərin şüarları ilə çıxış edirdilər. Babək hərəkatının məğlubiyyətindən sonra Arranda (Əbu Musanın başçılığı ilə Ktic qalası) xilafət əleyhinə yeni üsyanlar baş verdi.

Orta əsrlərdə baş verən digər kəndli müharibələrindən fərqli olaraq bu müharibə hər şeydən öncə istiqlaliyyət uğrunda azadlıq müharibəsi idi. Mübarizədə xalqın imtiyazlı təbəqəsinin dönüklüyü, ərəblərə nisbətən daha cəsur və döyüşkən türk sərkərdələrinin eyni və digər mənşəli üsyançılara qarşı səfərbərliyə alınması, ən başlıcası ermənilərin xəyanəti və ərəblərə köməklik etməsi azadlıq müharibəsinin məğlubiyyətlə nəticələnməsinə səbəb oldu. Ağır məğlubiyyətə baxmayaraq, Xürrəmilər hərəkatı digər asılı xalqların azadlıq mübarizəsinə təkan verməklə yanaşı, Azərbaycanda xalqın şüurunda və əməlində əsrlərlə yaşadı. Üsyançılar və onların rəhbəri Babəkə nifrət hissi bəsləmələrinə baxmayaraq, hərəkatın təsirini və əzəmətini ərəb tarixçiləri də etiraf etmişlər. İbn Təğriberdi adlı tarixçi yazırdı ki, "Babək öz zəmanəsinin qəhrəmanı və xilafəti dəhşətə gətirən bir igiddir".

VII əsrdə Azərbaycanda islam dininin qəbul olunması Azərbaycan tarixinin ən mühüm hadisələrindən biri idi. Ölkədə dini birliyin yaranması bütün Azərbaycan ərazisində vahid adət-ənənələrin təşəkkülünə, əlaqələrin genişlənməsinə səbəb oldu. Bununla belə, təkallahlı dinlərə sitayiş edənləri müsəlmanlaşdırmaq islamın prinsiplərinə zidd olduğu üçün ərəb xilafəti dövründə Albaniyanın xristian əhalisi islam dininin təsir dairəsindən kənarda qaldı. Beləliklə, ölkədə dini ayrılıq baş verdi. Çoxluq təşkil edən və ölkənin bütün ərazisinə yayılmış olan müsəlman əhali, həmçinin azlıq təşkil edən və əsasən Şimali Azərbaycanın qərb bölgələrində yaşayan xristian albanlar. Zaman keçdikcə Qərbi Azərbaycanın, o cümlədən Qarabağın dağlıq bölgələrinin xristian əhalisi qriqoryanlaşdırılmağa başlanılmış və bu ayrı-ayrı illərdə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə sağalmaz yaralar vurmuşdur.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını XX yüzilliyin sonunda məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilmişdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən rəşadətli Azərbaycan Ordusu Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasəti nəticəsində uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması və dövlətçilik ənənələrinin bərpa edilərək inkişaf etdirilməsi şanlı tariximizə qızıl hərflərlə qeyd ediləcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# İdmançılarımızı tanıyaq

*2026-cı ilin hazırlıq planına əsasən, Heydər Əliyev adına Hərbi İnstitutda cüdo, yunan-Roma və sərbəst güləş üzrə ordu birinciliyi keçirildi.*

*Birincilikdə cüdo, yunan-Roma və sərbəst güləş üzrə 10 çəki dərəcəsində 11 komandadan ümumilikdə 297 idmançı mübarizə aparırdı.*

*Yarışların hakimləri tərəfindən topladıqları xallara uyğun olaraq fərdi və komandalar üzrə qaliblər elan edildi.*

*Qalib komandalara kubok, fərdi nəticələrə görə isə hərbi qulluqçulara fəxri fərman, medallar və diplomlar təqdim olundu.*

*Birincilikdə fəxri kürsünün ən yüksək pilləsinə layiq görülən hərbi qulluqçularımızı təqdim edirik.*

**"Azərbaycan Ordusu"**



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Mircəfər Cavadov**:

- Yarışlara əvvəlcədən çox ciddi hazırlaşmışdıq. Birincilik gərgin mübarizə şəraitində keçdi. Azərbaycan Ordusu üzrə keçirilən yarışda birinci yerə layiq görüldüyüm üçün sevinirəm. Bundan sonra da fiziki hazırlığımı artırmaq və yeni-yeni uğurlar qazanmaq üçün çalışacağam.

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Zaur Məmmədov**:

- Fiziki hazırlıq irademizi, dözümümüzü, gücümüzü artırmaq üçün əsas vasitedir. Hər-



bi qulluqçu həm fiziki, həm də döyüş hazırlığı baxımından hər zaman yüksək səviyyədə olmalıdır. Bunun üçün isə bizə xidmət etdiyimiz bölmədə hər cür şərait yaradılıb. Birincilikdə bütün rəqiblərimi üstələyərək qalib olmağım da bunun bariz nümunəsidir.



Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Kənan Teymurov**:

- İdmanla məşğul olmaq əhvali-ruhiyyəmizi yüksəldir, bizi daima gümrah saxlayır . Həmçinin birbaşa sağlam həyat tərzinin formalaşmasına kömək edir. Əbəs yerə deyilməyib ki, sağlam bədəndə sağlam ruh olar. Birincilikdə qalib olmağım məni arxayınlaşdırmır, əksinə, yeni qələbələrə sövq edir.

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Elton Mamedov**:

- Fiziki hazırlıq məşğələləri bizdə intizam və məsuliyyət hissini də formalaşdırır. İdman hərəkətləri artıq gündəlik həyatımı-



zın ayrılmaz hissəsidir. Güclü və daima güclülərin sırasında olmaq üçün öz üzərimdə bundan sonra da çalışacağam.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Sübhan Muradov**:

- Komandanlıq tərəfindən bu yarışa hazırlaşmağımız üçün hər cür şərait yaradılmışdı. Davamlı məşqlər sayəsində çevikliyimizi və hazırlığımızı yüksəltdik və qaliblər sırasında olmaqla istədiyimiz nəticəni əldə etdik.



Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Namus Orucov:**

- Birinciliyin gərgin mübarizə şəraitində keçməsinə baxmayaraq istədiyim nəticəni əldə etdiyim üçün çox sevinirəm. Belə yarışlarda qalib olmaq yüksək





fiziki hazırlıq tələb edir. Müntəzəm məşqlər sayəsində hazırlığımızı artıraraq bizə olan etimadı doğrulduruq.

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Məhəmməd Bayramov**:

- Mülki həyatda da idmanla müntəzəm məşğul olurdum. Xidmətə gəldikdən sonra bölməmizdə yaradılan şəraiti gördüm. Hərbi hissəmizdə mövcud olan müasir avadanlıqlarla təchiz olunmuş trenajorlar yarışlar-



da uğur qazanmağımızda əvəzsiz töhfə oldu. Bu yarışları yüksək fiziki hazırlıqla yanaşı, həm də özünəinam istəyir. Özünəinam hiss olmayan idmançı heç vaxt qələbə qazana bilməz.

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Əli İsgəndərzadə**:

- Əsl hərbi qulluqçu kimi for-



malaşmaq üçün digər hazırlıqlarla yanaşı, fiziki hazırlığını da paralel şəkildə inkişaf etdirməlisən.İdmanla məşğul olmaq bizi fiziki cəhətdən inkişaf etdirir. Mənim üçün yarışda qələbə qazanmaq ən böyük uğurlardan biri idi. Ancaq etiraf edim ki, birinci yerə layiq görülmək heç də asan olmadı. Rəqiblərim hər biri hazırlıqlı idi.

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Eyvaz Baxşıyev**:

- İdmanı çox sevirəm, bu fəaliyyət mənim həyatımın bir parçasıdır. Xidmətə başladıqdan sonra burada yaradılan şəraiti gördüm və həvəslə müasir qurğularla təchiz olunmuş trenajorlarda fiziki göstəricilərimi daha da artırdım. Düşünürəm ki, uğur qazanmaq istəyirsənsə, idmanı sevmək, hətta ona bağlı olmaq lazımdır. Bunları etdiyin andan etibarən uğur daim səninlə olacaq.



Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Vaqif Tarverdiyev**:

- Hərbi xidmətdə idmanın əhəmiyyətini bir daha dərk edirəm. Uşaq yaşlarımdan idmanın cüdo növünə maraq göstərirdim və bu idman növü ilə məşğul olurdum. Cüdo mənə dözümlülük, səbir və özünə-



inam kimi xüsusiyyətləri qazandırıb. Orduda da bu bacarıqlarımı daha da inkişaf etdirirəm. Burada idmana bu qədər diqqətin ayrılması bizim üçün həm sağlamlıq, həm də böyük dəstəkdir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər **Rəşid Məmmədzadə**:

- Asudə vaxtlarımızı səmərəli keçirmək və fiziki cəhətdən sağlam olmaq komandanlıq tərəfindən qarşıya qoyulan əsas məqsədlərdən biridir. İdmanla məşğul olmaq bizi təkcə fiziki cəhətdən inkişaf etdirmir, həm də humanistliyi, əzmkarlığı öyrənirik. Sevindirici haldır ki, çəkdiyimiz əziyyətlər bəhrəsiz qalmadı. Birincilikdə qazandığımız uğurlar bunu sübut etdi.

**"Azərbaycan Ordusu"**

# İdman

## “Böyük Dəbilqə”: Azərbaycanın daha bir cüdoçusu qızıl medal qazanıb



Özbəkistanın paytaxtı Daşkənddə keçirilən cüdo üzrə "Böyük Dəbilqə" turnirində milli komandanın aktivinə daha bir qızıl medal yazdırıb.

81 kiloqram çəki dərəcəsində çıxış edən Ömər Rəcəbli karyerasında ilk dəfə analoji yarışda çempionluq sevinci yaşayıb. Ömər turnir ərzində keçirdiyi 5 görüşün 4-də rəqiblərini ne-vazada osaekomi (saxlama) texnikası ilə məğlub edib. Bu nəticə həm də 22 yaşlı idmançının Dünya turunda ilk qızıl medalı kimi tarixə düşüb.

Turnirin ilk günündə milli komandanın üzvlərindən Əhməd Yusifov (60 kq) qızıl, Balabəy Ağayev (60 kq) isə gümüş medal qazanıb.

Hazırda hesabında 2 qızıl və 1 gümüş olmaqla, 3 medal olan Azərbaycan ümumi medal sıralamasında 39 ölkə arasında ikinci pillədə yer alıb.

## Reytinq turnirində daha 2 medal




Albaniyanın paytaxtı Tiranada güləş üzrə "Muhamet Malo" turniri davam edir.

Reytinq turnirinin 4-cü yarış günündə 4 güləşçimiz mübarizə aparıb və onlardan 2-si fəxri kürsüyə qalxıb.

Ziya Babaşov albaniyalı Mikel Tropliniyə (8:0), iranlı Ali Nurayiyə (4:1) və qazaxıstanlı Yernur Fidaxmetova (7:3), Sakit Quliyev isə amerikalı İldar Hafizova (9:0), qazaxıstanlı Bakitjan Kabdilə (7:1) və norveçli Morten Toresenə (11:0) qalib gələrək finala yüksəlib. Həmyerlilərimiz həlledici görüşdə üz-üzə gəliblər. Sakitə ilk xal prinsipinə əsasən (1:1) qalib gələn Ziya reytinq turnirinin qalibi olub.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçular əsgər Babayev Pünhan Mürvət oğluna verilmiş AD № 0054535 nömrəli, əsgər Vəlizadə Elçin Araz oğluna verilmiş AD № 0056099 nömrəli və matros Şabanov Şamil Məhəmməd oğluna verilmiş MV № 0056223 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Şəlalə CAMAL | Lisenziya № 361 Sifariş № 165 Nüsxə 3638 |